

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 22 (21.683)

*1 fevral 2017-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Qətər Dövlətinin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Al-Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Qətər arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluğunu ifadə etdi. Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al-Taninin Azərbaycana səfərinin əlaqələrimizin inkişafında mühüm rol oynadığını bildirdi, eyni zamanda, Qətərin xarici işlər naziri Şeyx Məhəmməd bin Əbdürrəhman Al-Taninin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını vurğuladı. Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın fəaliyyətinə toxunan dövlətimizin başçısı bu komissiyanın iqtisadi əməkdaşlığımızın praktik məsələlərinin müzakirəsinə diqqət yetirəcəyinə ümidvar olduğunu bildirdi.

Qətərin xarici işlər naziri Azərbaycanda gedən inkişaf proseslərinin Qətərdə böyük maraqla izlənildiyini bildirdi.

Görüşdə BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqdan məmnunluq ifadə olundu və bu əməkdaşlığın daha da möhkəmləndirilməsinin önəmi vurğulandı.

## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib

***Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunda ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş tədbir keçirilib. Tədbirdə fondun icraçı direktoru Məmməd Babayev ötən il muxtar respublikada gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli və hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, sağlam həyat tərzinin təbliği sahəsində görülən işlərdən danışıb.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış edərək bildirib ki, bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənclərin hərtərəfli inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada gənclik mərkəzləri, elektron kitabxanalar, mədəniyyət evləri, ali təhsil müəssisələrində yeni tədris korpusları, təhsil müəssisələri, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər mühüm obyektlər tikilərək gənclərin istifadəsinə verilir. Bununla yanaşı, gənc istedadlar dövlət qayğısı ilə əhatə olunur, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclər irəli çəkilir və xidmətləri qiymətləndirilir.

Qeyd olunub ki, gəncliyə dövlət qayğısı sabaha və gələcək uğurlara hesablanan bir siyasətdir. Bu siyasətin konkret bir regionda ən parlaq ifadələrindən biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması və Gənclər Mərkəzinin tikilib gənclərin istifadəsinə verilməsidir.



Diqqətə çatdırılıb ki, muxtar respublikada gənclərin yaradılanlardan istifadəsi, asudə vaxtlarının səmərəli təşkili, fəallıqlarının artırılması, istedadlı gənclərin aşkara çıxarılması və istiqamətləndirilməsi sahəsində görülən işlərin müşahidəsi onu deməyə əsas verir ki, bu sahədə görüləcək işlər çoxdur.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun fəaliyyətinin əsas məqsədinin gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli layihə və proqramları məqsədli maliyyələşdirmək, gənclər təşkilatlarının innovativ ideyalarını dəstəkləmək, gənc nəslin təşəbbüskarlığını artırmaq, ideyaların yaradılması və idarə edilməsində bacarıqlarının stimullaşdırılmasından ibarət olmasına baxmayaraq, bu sahədə iş qənaətbəxş olmayıb. Ötən müddət ərzində Gənclər Fondunun keçirdiyi tədbirlərə nəzər saldıqda fəaliyyətin yalnız Naxçıvan şəhərini əhatə etdiyi müşahidə olunur. Rayonlarda olan istedadlı gənclərin müəyyənləşdirilməsi sahəsində iş aparılmır. Gənclər Fondu rayonlarda tamaşaların, eləcə də konsert proqramlarının təşkili ilə işini bitmiş hesab etməməlidir. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, eləcə də istedadlı gənclərin üzə çıxarılması istiqamətində keçirilən müxtəlif səpkili tədbirlər rayonları da əhatə etməlidir.

Rəhman Məmmədov bildirib ki, keçirilən tədbirlərdə tədbirin mahiyyətindən asılı olmayaraq, həmişə eyni qrup gənclərlə iş aparılır. Bu isə yolverilməzdir. Gənclər Fondu gənclərlə iş təcrübəsini yeniləməlidir. Tədbir xatirinə iş görülməməlidir. Tədbirlər elə səviyyədə olmalıdır ki, maraqlı və yaddaqalan olsun, gənclər ondan faydalansınlar. Hər bir tədbirin mahiyyətinə uyğun olaraq dəvət və iştirak kontingenti müəyyənləşdirilməlidir. İstedadlı gənclərlə, gənc alimlərlə iş aparılmır və onların məlumat bazası bu günə qədər tam formalaşdırılmayıb. Bu sahədə iş qısa müddətdə yekunlaşmalıdır. Gənclərin təşəbbüskarlığının artırılması istiqamətində iş gücləndirilməli, təşəbbüskar gənclər həvəsləndirilməlidir. Qeyd olunub ki, muxtar respublikada yaradıcı gənclik yetişir. Bu gənclərlə iş düzgün qurulmalıdır. Onlara düzgün istiqamət verilməli, muxtar respublikanın əldə etdiyi inkişaf, aparılan quruculuq işləri onların yaradıcılıqlarında əsas mövzu olmalıdır. Ən yaxşı yaradıcılıq nümunələrinin təqdimatı, sərgisi təşkil edilməlidir. Gənclər tədbirdən tədbirə Gənclər Mərkəzinə gəlməməlidir. Gənclər Mərkəzinin imkanlarından gənclərin düzgün istifadəsi istiqamətində ciddi iş aparılmalıdır.

Rəhman Məmmədov deyib ki, gənclərin sosial şəbəkələrdə də fəallığı artırılmalı, Naxçıvanın tarixi, mədəniyyəti ilə bağlı materialların internetdə yerləşdirilməsi istiqamətində iş aparılmalıdır. Naxçıvan Muxtar Respublikası haqqında yazılan qərəzli fikirlərə cavab verilməsində gənclər fəal olmalıdırlar. Gənclər Fondu ali və orta ixtisas təhsili müəssisələrinin tələbə-gənclər təşkilatları, Yeni Azərbaycan Partiyasının şəhər və rayon təşkilatlarının gənclər birlikləri ilə əlaqələrini gücləndirməli, birgə tədbirlər təşkil etməli, gənclərin fəallığına nail olmalıdır.

Tədbirə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev yekun vurub.

## Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər və Sədərək Rayon təşkilatlarında şura iclasları keçirilib



2016-cı ildə təşkilatın fəaliyyətinin əsas yekunlarının və 2017-ci ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr edilmiş şura iclasında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərli məruzə edib, ötən il görülən işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Bildirib ki, bəhs olunan dövrdə təşkilatın şura iclaslarının vaxtlı-vaxtında keçirilməsi təmin olunub, görülən işlərə dair hesabatlar dinlənilib. Ərazi ilk təşkilatlarının fəaliyyətinə nəzarət artırılıb, onlara lazımi metodik köməkliklər göstərilib. Aparılan partiyadaxili struktur islahatları nəticəsində ərazi ilk təşkilatlarının sayı 187-dən 150-yə enib ki, bu da işdə operativliyin və səmərəliliyin artmasına müsbət təsir göstərib.

Qeyd edilib ki, ötən il təşkilatın şurasının 4, idarə heyətinin 12 iclasında partiya həyatına və siyasi-ideoloji işə dair müxtəlif məsələlər müzakirə edilib. Təşkilat partiya sıralarının genişləndirilməsini diqqət mərkəzində saxlayıb, partiya sıralarına qəbul yaradılan işçi qrupu tərəfindən müsahibə yolu ilə seçim əsasında aparılıb, xüsusən dövlətçiliyə sadiq əqidəli gənclərin və qadınların partiya sıralarına qəbuluna üstünlük verilib. Hazırda təşkilatın əhatə etdiyi 150 ərazi ilk partiya təşkilatının qeydiyyatında 16 min 52 nəfər partiya üzvü vardır. Partiya üzvlərinin 8344 nəfərini, yəni 52 faizini qadınlar, 9064 nəfərini, yəni 56 faizini 18-35 yaşlı gənclər təşkil edir. Ötən il ərzində Yeni Azərbaycan Partiyası sıralarına 327 nəfər qəbul olunub. Onların 189 nəfəri (58 faizi) qadınlar, 305 nəfəri (93 faizi) gənclərdir. Təşkilatın üzvləri 2016-cı ilin sentyabr ayında Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı keçirilən referendumda fəal iştirak ediblər. Ötən il oktyabr ayının 28-də Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının XI konfransı keçirilib.

Şura iclasında 2017-ci ildə qarşıda duran vəzifələrdən də danışılıb.

Məruzə ətrafında Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyevin, Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yazgül Rzayevanın, şura üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fəxrəddin Səfərlinin, Gənclər Birliyinin sədri Cəbi Quliyevin çıxışları olub. Müzakirə olunan məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

Daha sonra Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı İdarə Heyətinin iclası keçirilib. 30 ərazi ilk partiya təşkilatı üzrə 233 nəfər Yeni Azərbaycan Partiyasına üzv qəbul olunub.

Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatında ötən ilin yekunları, cari ildə qarşıda duran vəzifələrə bağlı keçirilən yığıncaqda təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, ötən il Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı fəaliyyətini ilin əvvəlində təsdiq olunmuş iş planı əsasında qurub. Vaxtlı-vaxtında keçirilən partiya yığıncaqlarında görülən işlərin hesabatı dinlənilib, işin keyfiyyətinin yüksəldilməsi üçün məqsədyönlü tədbirlər görülüb.

Bildirilib ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı 26 sentyabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının Konstitusiyasında dəyişiklik edilməsi ilə bağlı keçirilən ümumxalq səsverməsində fəal iştirak edib. Təşkilat ümumxalq səsvermənin uğurla başa çatması üçün Yeni Azərbaycan Partiyası fəallarının qüvvələrini səfərbər edib, görüşlər keçirilib.

Vurğulanıb ki, təşkilatın idarə heyətinin 12, şurasının 5 iclası keçirilib, 26 məsələ müzakirə edilərək zəruri tədbirlər müəyyənləşdirilib. İl ərzində partiya sıralarına qəbulda keyfiyyət tərkibinin yaxşılaşdırılmasına, xüsusilə gənclərin Yeni Azərbaycan Partiyasına qəbul edilməsinə böyük önəm verilib.

Qeyd olunub ki, hesabat dövründə Yeni Azərbaycan Partiyasının sıralarına 44 nəfər üzv qəbul edilib. Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının əhatə etdiyi 21 ilk partiya təşkilatının qeydiyyatında 1471 nəfər üzv vardır. Partiya üzvlərinin 273 nəfəri qadınlar, 364 nəfəri isə gənclərdir.

Arif Qasımov deyib ki, 2017-ci ildə partiya üzvlərinin qarşısında duran əsas vəzifələr qazanılan uğurları xalqa çatdırmaq, əhali arasında ideya-siyasi işi gücləndirməkdən ibarət olmalıdır. Tutduğu vəzifədən asılı olmayaraq, hər bir partiya üzvü Proqram və Nizamnamənin tələblərinə, prinsiplərinə əməl etməli, siyasi proseslərdə, rayonda gedən quruculuq-abadlıq işlərində, yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində fəallıq göstərməlidir.

Məruzə ətrafında partiya fəallarının çıxışları olub. Çıxışlarda qeyd edilib ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyası bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən dönmədən həyata keçirilir. Bu da Azərbaycanın yeni müstəvidə inkişafını təmin edib. Bu inkişafda Yeni Azərbaycan Partiyası üzvləri də fəaldırlar. 2017-ci ildə də partiya fəalları üzərlərinə düşən vəzifələrin uğurlu həllinə nail olacaqlar.

Sonra partiya sıralarına qəbul edilmiş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

**Xəbərlər şöbəsi**









# Turizmlə bağlı qarşıya qoyulan tapşırıqlar uğurla icra olunur



***2016-cı il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi” ilə bağlı müşavirə keçirilmiş, aid təşkilatlar qarşısında mühüm vəzifələr qoyulmuşdur. Verilən tapşırıqların icrası məqsədilə tədbirlər planı hazırlanmış, turizmin inkişafı məqsədilə mühüm işlər görülmüşdür.***

Muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların hazırlanması və internetdə yerləşdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən 76 dövlət orqanının saytında Naxçıvan portalının, 94 dövlət orqanının saytında Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytının bannerləri yerləşdirilmiş və keçidlər verilmişdir. Bundan əlavə, muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsini və bu məlumatların daim yenilənməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində Turizm İnformasiya Mərkəzinin əməkdaşları üçün seminar təşkil olunmuşdur. Hesabat dövründə Naxçıvan Turizm İnformasiya Mərkəzinin internet səhifəsi 3 dildə – Azərbaycan, rus və ingilis dillərində yenidən işlənmiş, muxtar respublikanın turizm imkanlarını əks etdirən materiallarla zənginləşdirilmişdir.

Naxçıvanda müalicə turizmi üçün geniş imkanlar vardır. Bu sahədə reklam-informasiya materiallarının hazırlanması və təbliği mühüm əhəmiyyət daşıyır. Muxtar respublikanın müalicə turizmi ilə bağlı Naxçıvan televiziyasında məlumat verilmiş, Naxçıvan Muxtar Respublika Xəstəxanasında “Naftalan və onun müalicəvi əhəmiyyətləri” mövzusunda seminar keçirilmişdir.

Xalq sənətkarlığı sahələri və əl işləri turistlərin diqqətini daha çox cəlb edir. Muxtar respublikada xalq sənətkarlığının müxtəlif sahələri inkişaf etdirilmiş, sənətkarlar üçün lazımi şərait yaradılmışdır. Ötən dövrdə nazirliyin “Tətbiqi sənət və rəsm əsərləri, tarix və mədəniyyətimizlə bağlı müxtəlif növ çap məhsullarının satış mərkəzi”ndə 10 min 906 manatlıq 1117 ədəd əl işi satılmışdır. “Naxçıvan Biznes Mərkəzi” MMC tərəfindən isə sərgi-satış məqsədilə 204 adda 9527 manat dəyərində əl işi və sənət əsəri qəbul edilmiş, 97 adda 6795 manat dəyərində əl işlərinin satışı həyata keçirilmişdir.

Müşavirədə gənclərin tarixi-mədəni irsimizə hörmət ruhunda böyüdülməsi əsas vəzifə kimi müəyyənləşdirilmişdir. Mədəniyyət və Turizm Nazirliyi Gənclər və İdman Nazirliyi və Gənclər Fondu ilə birlikdə “Naxçıvanı tanıyaq” devizi altında gənclərin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğuna və Batabat Astrofizika Rəsədxanasına, Əlincəqalaya, Gülüstan türbəsinə, Ordubad rayonu ərazisindəki muzeylərə və tarixi abidələrə ekskursiyalarını təşkil etmişdir. Bundan başqa, Təhsil Nazirliyi tərəfindən 2016-cı il aprel ayının 2-dən iyun ayının 5-dək muxtar respublikanın əhatə etdiyi ümumtəhsil məktəblərinin sınaq imtahanlarında yüksək nəticə göstərmiş şagirdlərin Ağbulaq İstirahət Mərkəzinə gəzintiləri təşkil edilmişdir. Layihədə muxtar respublikanın ümumtəhsil məktəblərində təhsil alan 315 əlaçı şagird iştirak etmişdir. 45 sağlamlıq imkanları məhdud və 45 aztəminatlı ailələrin uşaqlarının da Ağbulaq İstirahət Mərkəzinə gəzintiləri təşkil olunmuşdur. Həmçinin yay tətili dövründə gənclərin, o cümlədən idmançıların və Heydər Əliyev adına Hərbi Lisey kursantlarının Ağbulaq İstirahət Mərkəzində istirahətləri, ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin və federasiyaların idmançılarının muzeylərə gəzintiləri təşkil olunmuşdur.

Hesabat dövründə Mədəniyyət və Turizm Nazirliyi və Nəqliyyat Nazirliyi tərəfindən muxtar respublikada taksi fəaliyyəti göstərən sürücülərin muzeylərdə seminar-məlumatlandırma işi davam etdirilmiş, sürücülər qrup şəklində muzeylərdə olmuş və maarifləndirilmişlər. Taksilərə muxtar respublikanın turizm yerləri, muzeyləri və milli mədəniyyət nümunələrini özündə əks etdirən turist xəritələri və bukletlər qoyulmuşdur.

Turizmin inkişafında əsas məsələlərdən biri də bu sahədə maarifləndirmə işlərinin aparılmasıdır. Müşavirədə bu məsələ ilə bağlı müvafiq tapşırıq verilmişdir. Ötən dövrdə İqtisadiyyat Nazirliyi və Mədəniyyət və Turizm Nazirliyi “Naxçıvan Biznes Mərkəzi” MMC-də iaşə və mehmanxana obyektlərində fəaliyyət göstərən işçilərə xidmət mədəniyyəti ilə bağlı maarifləndirici seminar keçirmişdir. Ötən ilin 7-9 aprel tarixlərində Bakı şəhərində keçirilən “XV Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər Sərgisi”ndə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan stendi ilə iştirak etmişdir. Sərgi çərçivəsində Bakı şəhərində yerləşən Ekspo Mərkəzdə Naxçıvan stendi qurulmuş və muxtar respublikanın turizm potensialı haqqında təbliğat materialları nümayiş etdirilmişdir.

27 sentyabr Ümumdünya Turizm Günü münasibətilə “Ümumdünya Turizm Günü: Naxçıvanı təqdim edirik” başlığı altında keçirilən internet-aksiyada Mədəniyyət və Turizm Nazirliyi aid təşkilatlarla birlikdə 10 bölmə üzrə 1000-ə yaxın foto və 152 tanıtım videosu hazırlamışdır. Bu materiallar paylaşılmaq üçün Gənclər Fonduna, Gənclər və İdman Nazirliyinə, Naxçıvan Dövlət Televiziyasına, qəzet redaksiyalarına və informasiya agentliklərinə təqdim edilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzinin veb saytında “Ümumdünya Turizm Günü: Naxçıvanı təqdim edirik” başlıqlı bölmə yaradılmış, hazırlanmış materiallar burada yerləşdirilmişdir. Ümumilikdə, aksiyada 1047 nəfər və 60 qrup iştirak etmişdir. Naxçıvanın tanıtımı ilə bağlı 273 sayta məlumat göndərilmiş, 41 saytda material dərc edilmiş, 55 minə yaxın paylaşım, 265 minə yaxın bəyənmə və 851 mindən çox izləyici sayı qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi və Naxçıvan Turizm İnformasiya Mərkəzi tərəfindən hesabat dövrü ərzində muxtar respublikanın turizm potensialını əks etdirən videoçarxların hazırlanması və onların internetdə yerləşdirilməsinin təmin edilməsi məqsədilə bir sıra işlər görülmüşdür. Belə ki, ötən il mərkəzin Youtube kanalına 680-dən çox videoçarx yerləşdirilmiş, həmin videoçarxlar facebook və google+ səhifələrində də yayımlanmışdır. Mərkəzə gəlmiş 1750 nəfər xarici ölkə vətəndaşının müraciəti cavablandırılmış, qonaqların mərkəzdə olan çap materialları ilə tanışlığı təmin edilmişdir. Mərkəzin “Facebook” sosial şəbəkəsindəki səhifəsinə 425 min 683 baxış olmuş, 1312 nəfər səhifəni bəyənmişdir. Mərkəzin saytında turist qəbul edən 35 kənd evi haqqında məlumat yerləşdirilmişdir. Həmçinin 2016-cı ildə Naxçıvan Dövlət Televiziyasında bu mövzuda 57 veriliş, 13 film, kəndlərin sosial həyatını əks etdirən 11 teleetüd və muxtar respublikanın turizm potensialını əks etdirən 11 videoçarx, “Günaydın” səhər proqramında 87, “Xəbərlər” proqramında isə 100-dən çox süjet efirə təqdim edilmişdir. Bu dövrdə dövlət radiosunda da 74 veriliş hazırlanmış, “Şərq qapısı” qəzetində turizmin təbliği ilə bağlı 69 məqalə dərc edilmişdir.

Azərbaycanın digər bölgələrində yerləşən turizm informasiya mərkəzlərinə və turizm şirkətlərinə, həmçinin xarici ölkələrə muxtar respublikanın turizm imkanları ilə bağlı materialların göndərilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 30-dan çox xarici ölkəyə, Azərbaycanda fəaliyyət göstərən 167 turizm şirkətinə və bölgələrdə yerləşən 11 turizm informasiya mərkəzinə məlumatlar göndərilmişdir. “Davamlı Turizmin İnkişafına Dəstək” İctimai Birliyi tərəfindən keçirilən müsabiqədə Naxçıvan Turizm İnformasiya Mərkəzi fəal iştirak edərək sertifikat və fəxri fərman almış, “Azərbaycan” turistlər üçün məlumat kataloqunda Naxçıvan Muxtar Respublikası rayonlar içərisində Bakı-Abşerondan sonra 2-ci yerdə təqdim edilmiş və digər rayonlarla müqayisədə muxtar respublikaya daha geniş yer ayrılmışdır. Ötən dövr ərzində muzeylərin internet saytlarının yaradılması da diqqət mərkəzində saxlanılmış, “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin saytı istifadəyə verilmiş, “Əlincəqala”, “Parçı İmamzadəsi”, Bəhruz Kəngərli Muzeyinin bukletləri hazırlanaraq çap etdirilmiş, “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyinin, “Gülüstan” Tarix-Mədəniyyət Qoruğunun, Bəhruz Kəngərli Muzeyinin yeni bələdçi mətnləri hazırlanmışdır.

Naxçıvanda kənd yaşıl turizmi üçün geniş potensial vardır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2016-cı ildə kənd yaşıl turizmin inkişafı ilə bağlı muxtar respublikanın 5 rayonunun 19 kəndində kənd sakinləri ilə maarifləndirici görüşlər keçirilmişdir. Sərhəd-keçid məntəqələrində, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanında quraşdırılan elektron məlumat lövhələrində turistləri maraqlandıran gömrük məlumatları, Naxçıvan Muxtar Respublikasının görməli yerlərinin fotoslaydları yerləşdirilmiş, infoköşklərdə Azərbaycan, rus və ingilis dillərində gömrük qanunvericiliyi barədə məlumatlar qoyulmuşdur. Həmçinin bütün gömrük orqanlarındakı infoköşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı videoçarxların nümayişi həyata keçirilməkdədir.

Hesabat dövrü ərzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikaya gələn əcnəbilərin Azərbaycanın, o cümlədən muxtar respublikanın mədəniyyəti, incəsənəti, mətbəxi və turizm imkanları haqqında məlumatlandırılması, muzeylərə və tarixi yerlərə ekskursiyalarının təşkil edilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada yaşayan və işləyən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə “Azərbaycanın mədəniyyəti və inkişaf tarixi”, “Azərbaycan xalçaları”, “Azərbaycanın Dövlət Bayrağı”, “Klassik Azərbaycan ədəbiyyatı”, “Azərbaycan rəssamlıq məktəbi”, “Naxçıvanın tarixi abidələri”, “Naxçıvan Muxtar Respublikasının tarix-mədəni turizm potensialı”,“Naxçıvan Muxtar Respublikasının dini turizm potensialı”, “Naxçıvan Muxtar Respublikasının müalicə turizmi potensialı” mövzularında 10 maarifləndirici tədbir keçirilmiş, bir sıra muzeylərə, tarixi abidələrə, dini və müalicə turizmi obyektlərinə ekskursiyalar təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Naxçıvan Dövlət Universiteti və “Naxçıvan” Universiteti ilə birgə Turizm və otelçilik ixtisasının muxtar respublikanın turizm potensialı ilə bağlı hazırlanmış materiallarla təmin edilməsi, həmin ixtisasda oxuyan tələbələrin tarixi yerlərə və muzeylərə ekskursiyalarının təşkili istiqamətində bir sıra işlər görmüşdür. Tələbələrin Qarabağlar Türbə Kompleksinə, “Əlincəqala” tarixi abidəsinə ekskursiyaları təşkil edilmişdir. Naxçıvan Dövlət Universitetində “Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf perspektivləri” mövzusunda dəyirmi masa keçirilmişdir. “Naxçıvanı tanıyaq” layihəsi çərçivəsində universitetin turizm ixtisasında təhsil alan III kurs tələbələri muxtar respublikanın turizm potensialı olan yerlərində olmuş və videoçarx hazırlamışlar. “Naxçıvan” Universitetinin Turizm İnformasiya Mərkəzinin təşkilatçılığı ilə may ayında taksi sürücüləri üçün “Turizmə yararlı peşəkar sürücü” kursu təşkil edilmişdir. “Naxçıvan” Universitetinin Turizm İnformasiya Mərkəzinin Gənc turçuları tərəfindən “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə test-tur təşkil olunmuşdur. 7 may 2016-cı il tarixdə Azərbaycan Turizm və Menecment Universitetində “Azərbaycan turizmi: bu gün və sabah” mövzusunda keçirilən gənc tədqiqatçıların respublika elmi-praktik konfransında “Naxçıvan” Universitetinin Turizm və otelçilik ixtisası üzrə II kurs tələbələri, 31 may-1 iyun tarixlərdə Bakı şəhərində “Regional turizmin davamlı inkişaf prioritetləri” mövzusunda keçirilən beynəlxalq konfransda universitetin Turizm İnformasiya Mərkəzi iştirak etmişdir. Oktyabr ayında Naxçıvan Dövlət Universitetinin Bələdiyyə və turizm kafedrasının əməkdaşlarının iştirakı ilə “Naxçıvanda turizmin problemləri və perspektivləri” mövzusunda dəyirmi masa keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi tərəfindən turistlərin təhlükəsizliyinin qorunması ilə bağlı fəaliyyətin gücləndirilməsi işinə diqqət artırılmışdır. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi tərəfindən isə muxtar respublikaya səfər edən turistlərin gediş-gəlişi zamanı rahatlıqlarının təmin olunması məqsədilə sərhəd-nəzarət məntəqələrində rəsmiləşdirilmə prosedurları sürətləndirilmişdir.

Turizm sahibkarlığının inkişaf etdirilməsi, turizmlə məşğul olan sahibkarlara müvafiq tövsiyələrin verilməsi, biznes-planların işlənilməsi və onların tətbiqinə nail olunması məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən aprelin 7-də “Naxçıvan Biznes Mərkəzi” MMC-də sahibkarlarla görüş keçirilmiş, onlara muxtar respublikada turizm sahibkarlığının inkişaf etdirilməsi istiqamətində yaradılmış şəraitlə bağlı geniş məlumat verilmişdir. Ötən dövrdə muxtar respublikada fəaliyyət göstərən 21 iaşə obyektində göstərilən xidmətlərin keyfiyyətinin və təqdim edilən menyularda milli yeməklərin çeşidinin artırılması istiqamətində maarifləndirici monitorinqlər aparılmış, müvafiq tövsiyələr verilmişdir.

Naxçıvanda turizmin inkişafı sahəsində görülən işlərin nəticəsidir ki, 2016-cı ildə muxtar respublikaya 403 mindən çox turist gəlmişdir ki, bunun da 271 mini xarici ölkə vətəndaşıdır.

*Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı verilən tapşırıqların icrası aid qurumlar tərəfindən davam etdirilir.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

**Qış qayğıları o zaman yaşanır ki, istiliyin, işığın, suyun, yolun olmur. Bizimsə işığımız, qazımız, suyumuz var, yolumuz rahatdı, telefonumuz işləyir, televizorumuz göstərir. Keçili kimi ucqar dağ kəndində qış nə qədər sərt keçsə də, qış qayğıları kənd adamlarını qorxutmur.**



*Jurnalistin qeydləri*

# Mənim könlüm deyir ki, hələ bunlar nədir ki...

## *Bir qış günü Şahbuz rayonunun Keçili kəndində*

İşıqlı və isti iş otağımın pəncərəsindən qar yorğanını başına çəkib qılınc kimi kəsən şaxtadan sanki "gizlənməyə" çalışan təbiətin səssiz, bəyaz gözəlliyinə tamaşa edirəm. Gözlərim pəncərədən bir nöqtəyə zillənsə də, xəyalımda Keçilidə qonağı olduğum ailənin ağsaqqalı ilə söhbətimiz canlanır, dünənimizin mənzərəsi gözlərim önünə gəlir. Düşünürəm ki, qarın göydən lay-lay ələnərək yolları, keçidləri, dağları, dərələri dümdüz edib bir rəngə boyadığı şaxtalı qış günlərində evdə istiliyin, işığın, suyun olmadığı, telefonun işləmədiyi, radio və televizordan isə danışmağın ağıla gəlmədiyi o zamanlarda yaşamaq nə qədər də çətin imiş.

İnsanların necə böyük qayğılarla, problemlərlə uzun, şaxtalı qış günlərini yaşadıqlarını Beytulla babanın acı xatirələri bir daha göz önünə gətirdi. Onun dediyinə görə, evdə gözə dəyən bir şey olmadığı kimi, qarındolusu yemək də başqa bir dərd imiş.

Yenə yazda, yayda çaydan-çeşmədən balıq tutar, dağda-bağda bitən yemişan, iydə, cır armudu yığıb ötüşər, çöldə-çəməndə yemlik, qazayağı, şomu, muncalaq yığıb evdə alabişmiş dürmək arasında yeyərdik, – deyən ağsaqqal sanki o illərdən ürəyində yığılıb qalan acı xatirələrin hamısını danışmaq istəyirdi. Söhbətinə ara verməsən ötənləri xatırlayır, üz-gözündən acı təəssüf hissi oxunurdu...

... Əli Əliyevin 63 yaşı var. Onun atası Beytulla Əliyev isə ömrünün 89-cu qışını yaşayır. Bu ailədə dünyaya gələn beş övladdan biri Əlidir. Ata ocağından pərvazlanan qardaş-bacılarından fərqli olaraq, o, ata ocağında ömrünün ahıllıq çağına yaxınlaşır. Məni qarşılayan da elə dünyanın hər üzünü görüb bu vədəsinə kimi yol gələn ağsaqqal idi. Nurani çöhrəsində illərin izi qalan Beytulla baba kövrək bir gülüşlə, mehribançılıqla ilk sualını mənə ünvanlayır:

– Ay qızım, bu soyuq gündə, qarda-boranda xeyir olsun?

– Bilmək istədim ki, qarın qalınlığı dizdən aşan bu günlərdə Keçili kəndinin sakinlərinin qayğısı nədir, necə yaşayırsınız? Axı qış qapını kəsib.

Məlumat üçün əvvəlcə onu deyim ki, kəndə getdiyim gün aramsız yağan qarın kirpikdə, qaşda topalanması havanın sərtliyindən, qarın çoxluğundan xəbər verirdi. Amma yolumuz rəvan və rahat olduğundan qorxumuz yox idi. Çünki maşın-mexanizmlərin köməkliyi ilə yollar qardan təmizlənmişdi. Buna görə də arın-arxayın getmək istədiyimiz ünvana vaxtında yetişdik...

Xülasə, bizi mehribanlıqla evə dəvət etdilər. Hal-əhval tutduqdan sonra gurhagur yanan qaz sobasının üstündəki çaydanın zümzüməsi yayılan işıqlı otaqda söhbətə başladıq. Diqqətimi çəkən bir kənd evinin təminatı idi. Müasir mebel dəstləri, döşənəcəyi olan otaqda könülaçan bir rahatlıq, gözəllik, səliqə-sahman var idi. Qonaqpərvərliyi ilə seçilən yurd yerlərimizdən biri kimi burada da ağır-əziyimizi hiss etdik. Qonaq üçün hazırlanıb saxlanılan çay dəstinin yanında çərəz, şirniyyat, meyvə süfrəyə düzüldü. Beytulla baba gülə-gülə dedi: "Yeyin, hamısı öz evimizdən, həyətimizdəndir, ləzzətlidir". Üz-gözündən bəxtəvərlik yağan ailə üzvlərinin, demək olar ki, hamısı masa ətrafına yığıldılar. Beytulla baba verdiyim sualları həvəslə cavablandırır, sevincini gizlətmirdi.

– Dünyanın yaxşısını, yamanını yaşaya-yaşaya bu günlərə gəlmişsiniz. Gəncliyiniz keçən bu kəndin elə o zamanlarda qış günləri, həyat tərzinizlə bağlı xatirələrinizi dinləmək üçün sizinlə görüşə gəlmişik.





– Çox pis ömür sürmüşük. Zamanın pis günlərini elə bu kənddə ta cavanlığımdan görmüşəm. Çətin günlər yaşamışıq. Atam, babam son bir ayı qışdan olan payızın əvvəlindən işdən boyun qaçıranda hər gün bizə xatırladardılar ki, qabaqdan qanlı qış gəlir. Odun-ocağınızı, kömürünüzü, yeyəcəklərinizi, geyəcəklərinizi tədarük edin ki, qışda naəlac qalmayasınız. O vaxtlar başqa kəndlər kimi, bu kəndə də qışda gediş-gəliş aylarla kəsilərdi. Maşın bu dağların yöndəmsiz yollarında nə gəzir, kəndlərdən, dolaylardan sağ-salamat mənzilbaşına çatanda nəzir-niyaz verilərdi. Çox çətinliklə rayon mərkəzinə, Naxçıvan şəhərinə ən vacib iş üçün gedib-gəlsək də, alış-veriş etmək, nəsə almaq, satmaq elə bir müşkül məsələ idi ki, hər kəs bu işin öhdəsindən gələ bilməzdi. Ona görə də payızda un, kartof, yağ və başqa zəruri ərzaqları minbir çətinliklə alar, öz gücümüzlə odun-ocaq tədarük edərdik ki, uzun qış aylarında naəlac qalmayaq. Kəndimizdəki mağazada bir-iki tikə mal olardı, ya olmazdı. Ehtiyacımız olan çox şeyi burada tapa bilmədiyimizdən üz tutmalı olurduq rayon mərkəzinə. Qış günlərində keçilməz yolları olan kəndlərimizə heç bir maşın getmirdi. Ona görə də hətta xəstələri, hamilə qadınları belə, xəstəxanaya çatdırmaq bəzən mümkünsüz olurdu. O zamanlar qayğı bir deyil, iki deyil, onlarla idi.

Kəndimizdə belə adət var idi ki, çətin günlərdə ailə başçısını itirən ailələrə, xəstəsi olanlara, imkansızlara hər kəs əlindən gələn qədər köməklik göstərməliydi. Ona görə qışda kəndimizin ağsaqqalları, qocası, cavanı bir evin yox, bir elin qayğısını çəkirdi. Yoxsulluq bir yandan, yolsuzluq, şəraitsizlik də bir yandan bizi sıxırdı. Amma ailənin hər bir üzvü bir işin qulpundan yapışırdı ki, "ömrü az olacaq" təsəllisi ilə yaşadığımız qara qış günlərindən birtəhər yaza çıxaq. Bax onda ağsaqqalların hələ payızda "oğul, qabaqdan qanlı-qadalı qış gəlir, hazırlığınızı görün" xəbərdarlığının nədən qaynaqlandığını görürdük. Kəndin içində yerimək, uşaqları məktəbə göndərmək özü də bir ayrı dərd idi. Heç məktəb binası da fərli deyildi. İndiki kimi olsaydı, nə vardı ki. Kəndimizin ad-sanını ucaldan insanların çoxu o tökülüb-dağılan məktəbdə oxuyublar. İndi nəvələrimə deyirəm ki, belə gözəl bir məktəbdə yaxşı oxumamaq günahdır.

Sel suları payız-qış aylarında günümüzü göy əskiyə bükmüşdü. Payızda bu suların yarğan açdığı məhəllə yolları qışda buz bağlayırdı. Oğulsan, o yoldan yıxılmadan, qol-qıçını sındırmadan məktəbə, ya da kənd içinə gedib çıxa biləsən. Deyiləsi, yazılası qurtarmayan o günlərimizin acı xatirələri indi ürəyimi göynədir. Kaş ki biz də cavanlığımızı belə bir gözəl dövranda keçirəydik. İndi bir metr qar yağsa da, heç bir saat keçməmiş kəndin yolu təmizlənir, qazımız, suyumuz kəsilmir, işığımız sönmür, yolumuz bağlanmır...

Söhbətimiz uzun çəkdi. Beytulla baba keçmişdən danışarkən nə qədər təəssüflənsə də, bugünkü yaşayışından bir o qədər razı idi. Onun bir fikri xüsusilə diqqətimi çəkdi:

– İndi sizin kimi qəfil qonaqlarımızı alnıaçıq, üzüağ qarşılayırıq. Lazımi qayğı göstəririk, qəşəng süfrə açırıq. Nənələrimizin, analarımızın hazırladığı dadlı kənd yeməkləri süfrəmizi bəzəyir. Xəcalət olmuruq. Ancaq o illərdə qonaq qapını açanda düşünürdük ki, süfrəyə nə qoyulacaq?

Beytulla babaya yeni bir sual ünvanlayıram:

– Televizora baxmaqdan, radio dinləməkdən zövq alırsınızmı?

– Ay qızım, bu kənddə oturub dünyanın istənilən yerindən xəbərlərə qulaq asmaq, verilişlərə baxmaq bir vaxtlar ağlımıza da gəlməzdi. Yadıma yenə də yaşadığımız o çətin günlər düşür. Televizora baxmaq, radionu dinləmək kənd yerlərində yaşayanlara çox sonradan nəsib oldu. Telefon isə bir-iki evdə olardı ki, onlar da çox vaxt işləməzdi. Amma bu gün nəvələrimin, nəticələrimin köməkliyi ilə mən dünyanın hər yerindən xəbər veren verilişləra baxıram. Evimizdə də ən müasir televizorun olması bu cəhətdən heç bir çətinliklə üzləşməməyimizə səbəb olur, – deyən ev sahibi kənddə onlar üçün yaradılan şəraitdən ürəkdolusu danışır:

– Məktəbimizi, xəstəxanamızı, dükanımızı yəqin görmüsən, istədiyimizdən də yaxşıdır. Kaş ki ömür vəfa edəydi, 3-5 il də yaşayıb bu gözəl günlərdə ürəyim istəyən kimi ömür sürərdim.

Söhbət edə-edə çay içdik, çərəz yedik, dadlı qış yeməkləri süfrəyə gətirildi. Bir kəndli ailəsinin bir neçə saatlıq qonağı olmaqla ötənlərdən, keçənlərdən təəssüf hissi ilə danışan ağsaqqalın xatirələrini dinlədik. Dünənindən acı xatirələri yada salıb, bu günlə fərəhlənən dünyagörmüşün söhbətini dinləmək özü də bir istirahət oldu mənim üçün.

Yəqin ki, uzun illər xatirimdə yaşayacaq o günün təəssüratları. Ağsaqqalın söhbətlərindən yaddaşımda ilişib qalanları elə onun öz sözləri ilə oxucularımıza çatdırmaq istədim. İstədim ki, uğrunda qurbanlar verdiyimiz müstəqilliyimizin tarixə çevrilən 25 ilində yurdumuzun gözəlliklərindən, yaşanmış çətin günlərdən şahidlərin özləri danışsınlar. Atalar demişkən, düşündüm ki, yüz eşitməkdənsə, bir görmək yaxşıdır. Və bunu da gördüm ki, doğrudan da, görməklə eşitmək bir-birindən çox fərqlidir.

Keçili kəndindən axşamın sazağında gözəl təəssüratla qayıdırıq. Kəndə gedərkən kənd yolunun təmizlənməsi üçün işləyən maşın-mexanizmlərin gurultusu ilə təbiətin sükutu pozulsa da, artıq təmizləmə işi başa çatdığından ətrafda tam sakitlik hökm sürürdü. Dağların ətəklərinə baş qoyub uyuyan, onu öz geniş ürəyi ilə qucaqlayıb bağrına basan ağappaq, qaryüklü dərələrə baxıram. Bir rəngdə olan təbiətin genişliyi göz oxşayır, ürək açırdı. Xınalı kəkliklərin, dovşanların, qırqovulların səssizlik hökm sürən yolların kənarlarında qar içində səkməsi diqqətimi cəlb edirdi. Qara bata-bata yuvasına tələsən çöl heyvanlarının, quşların bu qədər çoxluğu və hər tərəfdə olması onu göstərir ki, artıq təbiətimizə qənim kəsilənlər yoxdur. Dovşanın, kəkliyin, turacın belə arın-arxayın dərədə-təpədə qış günündə tez-tez görsənməsi bir zamanlar mümkünsüz idi. Onlar da dövlət qayğısı ilə qorundu, artıb çoxaldı. Yolboyu bu gözəlliyin də şahidi oluruq. Elə o andaca düşündüm ki, bu yerlərə qışın oğlan çağında gəlmək, qonaq gətirmək, gəzmək, dolaşmaq özü ən gözəl bir istirahət olar. Axı bu kəndlərimizdə həm də qış turizmi üçün lazımi təbiət mənzərələri, uca dağlar, gen dərələr könül açır.

*Dağların yuxuya, dəryaların xəyala daldığı bir qış gecəsində ana torpağımız əfsanəyə, nağıla bürünür elə bil ki. Dan yeri yorğun-yorğun söküləndə gözlərimizə nur gəlir, qəlbimizə fərəh. Nə təkrarsız, nə mübarək gecədir, – deyərək oyandığımız səhərdə Günəşi görmək arzusu ilə pəncərəyə yaxınlaşanda yenə də göydən nur kimi ələnən qar dənəciklərinin asta-asta təbiətin başqa rənglərini "sildiyini" görürük. Çox çəkmir ki, Şahbuz şəhərini qartəmizləyən maşın-mexanizmlərin səsi bürüyür. Hər kəs qardan təmizlənmiş yollarla işə tələsir. İş otağımın pəncərəsindən ətrafa nəzər yetirəndə düşündüm ki, böyük şairimiz demişkən, hələ bunlar nədir ki, gözəl günlər, şən günlər hələ qarşımızdadır.*

**Şəhla NƏBİYEVA**

# Xarici iqtisadi əlaqələr genişləndirilir

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən bildirilib ki, son illərdə muxtar respublika iqtisadiyyatının çoxşaxəli inkişafına ayrılan diqqət yerli istehsal məhsullarının xarici bazarlara çıxış imkanlarını xeyli yaxşılaşdırmaqla xarici ticarət əməliyyatlarının həcmini də əhəmiyyətli dərəcədə artırıb. Belə ki, ötən 2016-cı ildə Naxçıvan Muxtar Respublikasında xarici ticarət dövriyyəsinin həcmi 457 milyon 421 min ABŞ dolları təşkil edib ki, aparılan xarici ticarət əməliyyatlarının da 92 faizi ixracın, 8 faizi idxalın payına düşüb.***

Xarici ticarət əməliyyatlarının genişləndirilməsində yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli məhsulların istehsalı və onların xarici bazarlara çıxarılmasına imkan yaradan infrastruktur təminatı mühüm rol oynayır. Belə ki, ixracın stimullaşdırılması sahəsində qəbul edilən qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına, iqtisadi əlaqələrimizin daha da genişlənməsinə zəmin yaradıb. Ölkə ərazisində və xarici ölkələrdə keçirilən biznes-forumlarda, konfranslarda, sərgilərdə sahibkarlıq subyektlərinin iştirakı və məhsulların reklamının, sərgi-satışının təşkil edilməsi məqsədilə 2016-cı ildə ölkə daxilində və xaricdə keçirilən 16 biznes-forum, 2 beynəlxalq sərgidə 147 sahibkarlıq subyektinin iştirakı təmin edilib. Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində keçirilmiş "Gulfood-2016", İran İslam Respublikasının Urmiya şəhərində keçirilmiş "Daş sənayesi, mədən və mədən sənayesi avadanlıqları" beynəlxalq sərgilərində muxtar respublikada fəaliyyət göstərən 5 müəssisənin istehsal etdiyi mineral sular, lokum, peçenye, vafli, konfet, mərmər, travertin məmulatları, sement, əhəng, klinker, gips, alçıpan və məsaməli beton məhsulları nümayiş etdirilib. Muxtar respublikada istehsal olunan ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaratmaq üçün "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ixrac olunan məhsullara 115 halda mənşə sertifikatları verilib, qurumun kadr potensialının təkmilləşdirilməsi məqsədilə burada fəaliyyət göstərən laboratoriyanın əməkdaşları keçirilən treninqlərdə iştirak edib və müvafiq sertifikatlarla təmin olunublar. Bundan əlavə, ixracyönümlü fəaliyyətin genişləndirilməsi məqsədilə 13 yeni şirkət qlobal standart sisteminə daxil edilib, 96 çeşiddə məhsula ştrixkod verilib, 37 ixrac potensiallı müəssisəyə aid ərzaq və qeyri-ərzaq olmaqla, 339 çeşiddə məhsulun kataloqu hazırlanıb.

Ötən il gömrük orqanlarının normal fəaliyyət göstərməsi üçün həyata keçirilən infrastruktur layihələri və maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən işlər də xarici ticarət sahəsində işlərin genişləndirilməsinə öz təsirini göstərib. Belə ki, ötən il Sədərək sərhəd gömrük-buraxılış məntəqəsi üçün dünya standartlarına uyğun kompleksin tikintisi davam etdirilib, avtonəqliyyat vasitələrinin keçidini sürətləndirmək məqsədilə Sədərək və Culfa sərhədkeçid məntəqələrində yeni avadanlıqlar və xüsusi proqram təminatı quraşdırılaraq "Sərhədkeçmə vaxtının ölçülməsi" sisteminin tətbiqinə başlanılıb.

Naxçıvanın malik olduğu iqtisadi potensial, yeniləşən infrastrukturu, tarixi İpək Yolu üzərindəki mühüm mövqeyi, regionun tranzit imkanları və sahibkarlığa verilən dövlət zəmanəti bütün fəaliyyət növləri kimi, xarici iqtisadi əlaqələrə də öz təsirini göstərib. Bütün bunlar isə, ümumilikdə, muxtar respublikamızın uğurudur.

**Əli CABBAROV**

Yeni nəşrlər

## “Eynəli bəy Sultanov: Publisistika” kitabı çap edilib

***Bu yaxınlarda Bakıda “Elm və təhsil” nəşriyyatında Azərbaycanın görkəmli maarifçi-ziyalısı, yazıçı-publisist, eyni zamanda folklorşünas və tərcüməçi Eynəli bəy Sultanovun (1866-1935) publisistik yaradıcılığı küll halında nəşr olundu. Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylinin tərtib etdiyi və nəşrə hazırladığı, Eynəli bəy Sultanovun tədqiqatçısı Elxan Məmmədovun redaktoru olduğu “Eynəli bəy Sultanov: Publisistika” kitabında görkəmli publisistin müxtəlif illərdə qələmə aldığı, dövrünün ayrı-ayrı qəzet və jurnallarında dərc olunan məqalələri toplanmışdır. Qeyd edək ki, Eynəli bəy Sultanov Azərbaycan, fars, ərəb, yunan, latın və rus dillərini mükəmməl bilirdi. Onun qəzetçilik fəaliyyətinin böyük bir qismini də Tiflisdə və Bakıda nəşr olunan rusdilli mətbuatda çap olunan məqalələri təşkil edir. Haqqında danışdığımız kitabda da məhz Eynəli bəy Sultanovun rus dilində nəşr olunan məqalələri toplanmışdır.***



Kitab haqqında danışmazdan əvvəl bildirək ki, E.Sultanov 1887-ci ildən başlayaraq dövrünün mətbuat orqanları ilə əməkdaşlıq etmişdir. Çox güclü publisist olan E.Sultanov haqqında aşağıdakı bir fikri xatırlatmaqla onun hansı səviyyəli mətbuat insanı olduğunu təsəvvür edə bilərik. XIX əsrin sonları, XX əsrin əvvəllərindəki ədəbi-mədəni mühitin əhatəli tədqiqatçılarından olan Aida Feyzullayeva E.Sultanovdan bəhs edərkən qeyd edir ki, “Şübhəsiz, bu istedadlı jurnalistin fəaliyyətini nəzərə almadan XX əsrin ilk 20 illiyinə qədər demokratik Azərbaycan publisistikasının keçirdiyi inkişaf yolunu təsəvvürə gətirmək çətindir”.

İlk qələm təcrübələrini gənclik illərində “Tərcüman”da çap etdirən E.Sultanov sonralar rus dilində nəşr olunan bir sıra qəzetlərdə, Azərbaycan dilində çap olunan “Həyat”, “İrşad”, “İqbal”, “Molla Nəsrəddin”, “Yeni fikir” (həmin qəzetin əlavəsi olan “İşıq yol”da), “Dan ulduzu”, “Şərqi-rus”, “Yeni yol”, “Qızıl şəfəq” (1932-ci ildən sonra “Yeni qüvvə” adı ilə çıxanda belə), “Qığılcım”, “Kəndli”, “Gələcək” kimi qəzet, jurnal və məcmuələrdə müntəmadi olaraq bədii, publisist, tənqidi yazıları ilə çıxış etmişdir. Hətta müxtəlif illərdə “Kaspi” qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri, “Zakavkazye” qəzetinin Müsəlman həyatı şöbəsinin müdiri, “Kavkazskaya kommuna” qəzetinin redaktoru (1921-1923), “Yeni fikir” qəzetinə əlavə kimi nəşr olunan “İşıq yol” qəzetinin məsul katibi (1924-1926) işləmiş, eyni zamanda “Zakavkazskaya reç” qəzetinin “müsəlman qəzetlərindən tərcümə” sahəsində çalışmışdır.

Yuxarıda adıçəkilən mətbuat orqanlarında E.Sultanov məqalələrini 20-dən çox fərqli imzalarla dərc etdirmişdir.

Haqqında bəhs etdiyimiz kitaba akademik İsa Həbibbəyli geniş bir ön söz yazmışdır. Həmin ön sözdə də E.Sultanovun publisistik yaradıcılığı öz layiqli qiymətini almış, müxtəlif sahələri əhatə edən məqalələrinin ictimai-siyasi, mədəni və maarifləndirici keyfiyyətləri ön plana çəkilərək təhlil edilmişdir. Həmin ön sözdə tərtibçinin də qeyd etdiyi kimi “Eynəli bəy Sultanovun publisistikasında əsas yeri Qafqaz və Şərq xalqlarının həyat tərzi tuturdu. Bu problemə istinadən o, öz xalqının dərd-sərini, problemlərini də qabardırdı. Onun publisistikasında teatr, jurnalistika, folklor, bədii yaradıcılıq, tərcüməçilik, yeni əlifbanın yaranması yer alırdı. Bu, onun əsl milli ziyalı olduğunu ortaya qoyurdu”. Ön sözdə o da vurğulanır ki, Eynəli bəy Sultanovun XX əsr mətbuatında qələmə aldığı məqalələrində Azərbaycançılıq önə çəkilirdi. Bu istiqamətdə Cəlil Məmmədquluzadə ilə birlikdə hərəkət edən Eynəli bəy Sultanov Azərbaycançılığı Zaqafqaziya mətbuatında mütəmadi olaraq təbliğ edirdi.

Yüksək poliqrafik keyfiyyətlə hazırlanan 470 səhifəlik kitabda görkəmli publisistin 250-yə yaxın məqaləsi toplanaraq geniş oxucu auditoriyasının istifadəsinə verilmişdir.

Eynəli bəy Sultanov irsindən danışarkən bir məqama da diqqəti yönəltmək vacibdir. Ötən il ədibin anadan olmasının 150 illiyi tamam oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 15 fevral 2016-cı il tarixdə “Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalandı. Qeyd olunan sərəncamdan sonra Eynəli bəy Sultanovun tanıdılması istiqamətində böyük işlər həyata keçirildi. Belə ki, sağlığında 1904-cü ildə İrəvanda “Tatarka”, 1926-cı ildə isə Tiflisdə “Seyidlər” hekayəsi kitab şəklində dərc olunan ədibin ölümündən sonra, sadəcə, 1966-cı ildə 12 hekayədən ibarət olan əl içi boyda bir kitabçası nəşr olunmuşdu.

Sərəncamdan sonra ötən ilin aprel ayında tərəfimizdən “Eynəli bəy Sultanovun folklorşünaslıq irsi” dissertasiyası AMEA-nın Folklor İnstitutunun Dissertasiya Şurasında müdafiə edildi, ədibin 33 hekayəsinin yer aldığı “Eynəli bəy Sultanov: Hekayələr” kitabı nəşr olundu. Həmçinin indiyədək görkəmli ədibin həyat və yaradıcılığı haqqında dissertasiya müdafiə etmiş iki alimin, “İzzət Maqsudov: Eynəli bəy Sultanovun həyat və yaradıcılığı” və “İradə Əsədova: Eynəli bəy Sultanovun yaradıcılıq yolu” monoqrafiyaları nəşrə hazırlanaraq çap edildi.

Bunlarla yanaşı, muxtar respublikanın ali təhsil müəssisələri və elm ocaqlarının birgə təşkilatçılığı ilə ədibin həyat və yaradıcılığına həsr olunmuş elmi konfranslar keçirildi, “Naxçıvan” jurnalının bir nömrəsi bütövlükdə maarifçi ziyalıya həsr edildi, Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən “Onun həyat amalı” adlı sənədli film çəkildi. Və nəhayət, ötən ilin dekabrında ədibin 150 illik yubileyi dövlət səviyyəsində böyük təntənə ilə qeyd olundu.

Görülən işlərin davamı olaraq akademik İsa Həbibbəyli tərəfindən toplanan, tərtib edilərək nəşr edilən publisistik məqalələr Eynəli bəy Sultanovun daha əhatəli öyrənilməsi və tanıdılması istiqamətində həyata keçirilən böyük tədqiqatçılıq və vətəndaşlıq nümunəsidir.

Eynəli bəy Sultanovun publisistikasında qabartdığı məsələlər, irəli sürdüyü fikirlər, bir əsrdən çox müddəti əhatə edən tarixi dövr haqqındakı yazılar təkcə Eynəli bəy Sultanovun publisistik fəaliyyətinin öyrənilməsi cəhətindən yox, həm də Azərbaycan mətbuat tarixinin, mədəniyyət tarixinin, bütövlükdə müəyyən bir dövrü öyrənməkbaxımından da qiymətlidir. Bu baxımdan belə bir nəşrin ərsəyə gəlməsi böyük əhəmiyyətə malikdir.

Publisist Flora Xəlilzadə hələ bir neçə il bundan əvvəl qələmə aldığı bir məqaləsində qeyd edir ki, “yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, pedaqoq, teatr xadimi, teatr tənqidçisi, ictimai xadim, vətənpərvər fədai. Bütün bu məziyyətlərin və keyfiyyətlərin hamısını öz şəxsində birləşdirən Eynəli bəy Sultanovun Azərbaycan mətbuatının inkişafındakı rolu o qədər də geniş araşdırılmayıbdır”.

*Bu kitab Eynəli bəy Sultanovun publisistikasının ümumi mənzərəsi haqqında ətraflı fikir sahibi olmaq baxımından dəyərli mənbə olduğu kimi, görkəmli ziyalının publisistik fəaliyyətinin elmi cəhətdən tədqiqinə də geniş zəmin yaradacaqdır.*

**Elxan YURDOĞLU**

***Naxçıvan Dövlət Uşaq Teatrında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Gənclər Təşkilatı 2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirib.***

## Gənclər Gününə həsr olunmuş konsert

Həsənov çıxış edərək bildirib ki, müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə edilib. Muxtar respublikada gənclər üçün yeni mərkəzlərin, kitabxanaların, olimpiya-idman komplekslərinin tikilərək istifadəyə verilməsi regionumuzda onlara göstərilən qayğının ifadəsidir. Bütün bu işlərin görülməsində əsas məqsəd sağlam, müasir biliklərə yiyələnmiş, dünyada ölkəmizi layiqincə təmsil edə biləcək gənc nəslin formalaşdırılmasıdır.

Tədbir Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Xalq çalğı alətləri ansamblının ifa etdiyi “Çahargah” rəngi ilə başlayıb, ümummilli lider Heydər Əliyevin gənclər haqqında dediyi fikirlər səsləndirilib: “Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, atababalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır”.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Yaradıcı gənclərlə iş üzrə baş məsləhətçisi, nazirliyin Gənclər Təşkilatının sədri Pərvin

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Uşaq Filarmoniyasının konserti olub. Filarmoniyanın Xalq çalğı alətləri ansamblının ifasında səslənən mahnılar, muğamlar, rəqslər tədbir iştirakçılarına xoş əhval-ruhiyyə yaradıb. Azərbaycan bəstəkarları Şəfiqə Axundova, Rauf Hacıyev, Polad Bülbüloğlu, Mehriban Əhmədova və başqalarının mahnılarının ifasından sonra səhnədə Naxçıvan Dövlət Uşaq Filarmoniyasının rəqs qrupunun şən rəqsləri konsert proqramına rəngarənglik gətirib.

**Əli RZAYEV**

## Üç federasiyanın yığıncağı keçirilib

***Muxtar respublikada fəaliyyət göstərən daha 3 idman federasiyasında 2016-cı ilin yekunlarına və 2017-ci ildə qarşıda duran vəzifələrə həsr olunan yığıncaq keçirilib.***

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasında keçirilən yığıncaqda çıxış edən federasiyanın sədri Mahir Əliyev bildirib ki, ötən il federasiyanın əsas məqsədi basketbol idman növünü muxtar respublikada təbliğ etmək və gənclər arasında kütləvi hala gətirmək olub. Yaradılan şəraitdən federasiya maksimum istifadə edib və muxtar respublikanın şəhər və rayonlarında öz bölmələrini yaradıb. 2016-cı ildə federasiya Gənclər və İdman Nazirliyi ilə birgə 56 idman tədbiri keçirib.

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının yekun iclasında çıxış edən federasiyanın sədr müavini Aydın Mirzəyev vurğulayıb ki, ötən il mütəmadi olaraq yarışlar, turnirlər təşkil edilib. Eyni zamanda voleybol üzrə Azərbaycan çempionatının yüksək liqasının ilk dövrəsinin oyunları məhz muxtar respublikada keçirilib. İndi bizim əsas məqsədimiz çıxış etdiyimiz Azərbaycan çempionatında yüksək nəticələr əldə etməkdir. Bunu nəzərə alaraq, artıq yığmaya rusiyalı məşqçi də dəvət etmişik. Məqsədimiz muxtar respublikanın şəhər və rayonlarında voleybola olan marağı artırmaqdır. Aydın Mirzəyev cari ildə görüləcək işlər barədə də geniş məlumat verib.

“Geridə qoyduğumuz ildə muxtar respublikada futbolun kütləvi hal alması üçün tədbirlərin, yarışların təşkili diqqətdə saxlanılıb. Hər il olduğu kimi, 2016-cı ildə də müəyyən edilmiş yaş qruplarında zona birinciliklər keçirilib və qalib komandalar Naxçıvanı ölkə birinciliyində təmsil ediblər. 2016-cı ildə keçirilən futbol üzrə muxtar respublika çempionatında, “Heydər Əliyev Kuboku”nda, eyni zamanda futzal turnirlərində mindən çox uşaq, yeniyetmə və gənc mübarizə aparıb” – bu sözləri Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədr müavini Hafiz Əliyev ötən ilin yekunlarına həsr olunan yığıncaqda deyib, 2017-ci ildə qarşıda duran vəzifələrdən danışıb.

Hər üç yığıncaqda Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilmiş müşavirədə verilmiş tapşırıqlar haqqında tədbir iştirakçılarına məlumat veriblər.

## Boksçularımız Azərbaycan çempionatında 4 medal qazanıblar

***Bakı şəhərində Azərbaycan Respublikası Boks Federasiyasının İdman Kompleksində keçirilən kişi boksçular arasında Azərbaycan çempionatına yekun vurulub.***

10 çəki dərəcəsi üzrə keçirilən çempionatda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 9 dəri əlcək sahibi mübarizə aparıb.

56 kiloqram çəki dərəcəsində rinqə çıxan Tayfur Əliyev final görüşündə Tural Əhmədovla üzüzə gəlib. Zərbələrdə daha dəqiq olan Tayfur Əliyev ölkə çempionu adını qazanıb. Naxçıvanı təmsil edən digər boksçu Ağalar Sadiqzadə də bu uğuru təkrarlayıb. +91 kiloqram çəki dərəcəsində rinqə çıxan dəri əlcək sahibi həlledici qarşılaşmada Asəf Aslanlıdan üstün olub. Muxtar respublika boks məktəbinin digər yetirməsi Sərxan Əliyev də mükafat qazanıb. Belə ki, boksçumuz 60 kiloqram çəki dərəcəsində final görüşünə kimi məğlubiyyətsiz irəliləyib. Həlledici qarşılaşmada Cavid Çələbiyevlə qarşılaşan idmançımız ölkə çempionatının gümüş medalını qazanıb. Digər qızıl medalı isə komandamıza 81 kiloqram çəki dərəcəsində Eldar Quliyev qazandırıb.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

## Aztəminatlı ailəyə baş çəkilib

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Şərur rayonunun Çərçiboğan kəndində yaşayan aztəminatlı Süleymanovlar ailəsinə baş çəkilib.***

Ailə ilə görüş zamanı Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov, Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru İmran Əliyev bildiriblər ki, muxtar respublikada qarşıya qoyulan vəzifələrdən biri aztəminatlı təbəqənin rifahının yaxşılaşdırılmasıdır. Bunun üçün dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər görülür. Diyarımız xüsusi qayğıya ehtiyacı olan ailələrə münasibətdə ən humanist yanaşmalara əsaslanması ilə diqqəti cəlb edir. Əhalinin məşğulluğunun təmin edilməsi, yeni iş yerlərinin açılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi, aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi və bu qəbildən olan ailələrin sosial problemlərinin araşdırılaraq həll edilməsi bu sahədə görülən işlərdir.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvlərinə səyyari tibbi xidmət göstərilib, onlara ərzaq payı verilib.

Ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 86